**Cavadxan Yusif oğlu Qasımov**

**UOT: 338.658; JEL: L52.**

# Naxçıvan Muxtar Respublikasında makroiqtisadi inkişaf və dayanıqlılıq

***Xülasə***

*Məqalədə Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişafının 2010-2020-ci illərə aid olan on illik dövrü araşdırma obyektinə cəlb olunmuşdur. Bu müddət ərzində əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun istehsal həcmi, iqtisadiyyatın sosialyönümlük göstəricisi kimi onun hər bir nəfərə düşən həcmi üzrə təhlillər yer almışdır. Aparıcı sahələr olan sənaye və kənd təsərrüfatının inkişaf dinamikası və ÜDM-nin strukturunda müşahidə olunan artım dinamikası təqdim olunmuşdur. Eyni zamanda, son on ildə xarici ticarət dövriyyəsinin, ixrac əməliyyatları üzrə artımın, idxalın isə məhdudlaşdırılması və nəticə etibarı ilə müsbət saldonun yaranması sahəsindəki nəticələrin həcmi diaqramlar vasitəsilə verilmişdir. Əsas makroiqtisadi göstəricilərin artan dinamikada təşəkkül tapması iqtisadiyyatın diversifikasiya olunmasında hərəkətverici təsirə malik olmuş və bu, yeni istehsal sahələrinin yaradılmasına zəmin yaratmışdır. Bu isə, təbii ki, nəticə etibarı ilə sosiallaşma proseslərinin sürətlənməsinə və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur. Eyni zamanda, qeyd olunmuşdur ki, 2020-ci ilin əvvəllərindən dünya ölkələrinin milli iqtisadiyyatları üçün təhdidə çevrilmiş COVİD-19 Pandemiyasının təsirlər halədə qalmaqdadır. Bununla əlaqədar olaraq, milli iqtisadiyyatların inkişafı üç istiqamətdə qərarlaşmışdır. Bunlar, əsasən pandemiyadan əvvəl, pandemiya dövrü və postpandemiya dövrünün iqtisadiyyatı olaraq qruplaşdırıa bilər. Göstərilir ki, pandemiyadan əvvəl iqtisadi inkişaf təmin olunmuşdur. Bu, pandemiya dövrü üçün etibarlı bazaya çevrilmişdir. Həmçinin, postpandemiya dövrü üçün müqavimətlilik gətirmişdir.*

***Açar sözlər:*** *inkişaf dinamikası, ümumi daxili məhsul, xarici ticarət əməliyyatları, iqtisadi şaxələndirmə, müqavimətlilik.*



## Giriş

Azərbaycan Respublikasında milli iqtisadiyyat üzrə reallaşan islahatlar regional perspektivlərinin də artmasına stimul olaraq çıxış etməkdədir. Bu sahədə dövlət dəstəyi alətlərindən uzunmüddətli prioritetlər məqsədilə istifadə olunması etibarlı infrastruktur təminatına zəmin yaratmışdır. Naxçıvan Muxtar Respublikasının da özünəməxsus regional iqtisadi siyasətə malik olması baxımından onun makroiqtisadi əhəmiyyətlilik kəsb etdiyini qeyd etmək olar. Təhlillər göstərir ki, muxtar respublikanın makroiqtisadi prosesləri ölkənin sosiallaşma sahəsindəki hədəflərinin əlçatanlığına təminat vermiş, bu isə, ümumilikdə, milli iqtisadiyyatın təminatqabiliyyətliliyinə hərəkətverici təsiri ilə seçilmişdir. Əsas hədəf olaraq nəzərdə tutulan və ümumilikdə, ölkə üzrə milli iqtisadi məqsədlərə aid olunan:

- təsərrüfatçılıq fəaliyyətinin stimullaşdırılması sahəsində tədbirlərin reallaşdırılmasına;
- iqtisadiyyatın ənənəvi sahələri ilə yanaşı, yeni prioritet istiqamətlərin müəyyənləşdirilməsinə;
- yeni istehsal sahələrinin və müəssisələrinin yaradılmasına;
- mövcud sosial-iqtisadi inkişaf səviyyəsinə müvafiq olaraq, islahatların davamlılığının təmin olunmasına;

©Cavadxan Yusif oğlu Qasımov i.f.d., Naxçıvan Dövlət Universiteti.
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- məşğulluq imkanlarının genişləndirilməsinə və bununla da iqtisadiyyatın şaxələndirilməsinə, həmçinin, müqavimətliliyinin artırılmasına zəmin yaratmışdır.

Azərbaycan Respublikasında uzunmüddətli milli iqtisadi quruculuq prosesləri uğurla davam edir. Müasir iqtisadi şəraitin qanunları əsasında təşəkkül tapan iqtisadi siyasət özünün sosial mahiyyəti ilə daha böyük aktuallıq daşımaqda, bir tərəfdən dövlətin müəyyən etdiyi hədəfləri əlçatan edir, digər tərəfdən isə əhalinin firəvan yaşayışına istiqamətlənməkdədir. Ardıcıl mərhələlərdə təsdiq və icra olunan Dövlət proqramları, Strategiyalar və konsepsiyalar milli iqtisadiyyat üzrə perspektivləri artırmış, nəticədə isə bir-birini əvəz edən illərin dayanıqlı və müqavimətli potensialı formalaşmışdır. Təbii ki, bunlar isə, ümumilikdə, üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayış olan (1, s.76) dövlətin sosial siyasətinin səmərəliliyinin mühüm göstəricisi olmaqdadır. Məhz Naxçıvan Muxtar Respublikası ölkənin qeyd etdiyimiz makroiqtisadi inkişafının təmin olunması sahəsindəki rolu ilə mövcud potensialını daha da artırmış və etibarlılığını möhkəmləndirmişdir. Artan dinamikada təşəkkül tapan 2020-ci ilin də sosial-iqtisadi yekunları muxtar respublikanın keçdiyimiz illər üzrə davamlı sosial-iqtisadi inkişafında göstərmişdir.

**Naxçıvan Muxtar Respublikasının makroiqtisadi dayanıqlılığının artırılmasında regional inkişaf üzrə dövlət proqramlarının rolu**

2004-cü ildən uğurla icra olunan regional inkişaf üzrə Dövlət proqramları və digər sahəvi tənzimləmə mexanizmləri hər bir beşillik icra mərhələsi üzrə ölkənin bütün regionları kimi Naxçıvan Muxtar Respublikasının da iqtisadiyyatı üçün keyfiyyət mərhələsinin əsaslarına çevrilmişdir. Qeyd edək ki, təkcə 2004-2008-ci illəri əhatə edən eyni adlı Dövlət Proqramında muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün 57, 2009-2013-cü illər üzrə 46, 2014-2018-ci illər üzrə 57 mərhələdə tədbir həyata keçirilmişdir. Bu ardıcıllıq hazırkı 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramında da 18 mərhələli tədbirlə uğurla icra olunmaqdadır.



**Cədvəl 1**

**Regional inkişaf üzrə Dövlət proqramlarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üçün reallaşdırılması nəzərdə tutulan tədbirlər**

| S/s | Həyata keçirilmiş tədbirin adı |
|---|---|
| 1 | makroiqtisadi sabitliyi |
| 2 | məşğulluq səviyyəsinin yüksəldilməsi |
| 3 | bank və kredit təşkilatları |
| 4 | investisiya fəaliyyəti |
| 5 | sahibkarlığın inkişafı |
| 6 | sənayeləşmə siyasəti |
| 7 | kənd təsərrüfatında ardıcıl islahatları |
| 8 | xarici ticarət fəaliyyəti |
| 9 | informasiya və kommunikasiya texnologiyaları |
| 10 | turizmin inkişafı |
| 11 | elektrik və qaz təsərrüfatı |
| 12 | mənzil-kommunal təsərrüfatının inkişafı |
| 13 | nəqliyyat xidmətləri |
| 14 | ekoloji tarazlığı |
| 15 | əhalinin sosial müdafiəsi |
| 16 | təhsil sahəsini |
| 17 | səhiyyə xidmətləri |
| 18 | gənclərin, həmçinin bədən tərbiyəsinin və idmanın, mədəni irsin qorunması |

Cədvəl regional inkişaf üzrə Dövlət proqramlarında nəzərdə tutulan tədbirlər əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ölkədə təsdiq və qəbul olunan Dövlət proqramlarının muxtar respublikada icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunan: 9 iyun 2005 -ci il tarixdə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)"; 28 may 2009-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"; 1 sentyabr 2014-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və 31 yanvar 2014-cü il tarixdə "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafına dair Proqramı" da özünün mühüm əhəmiyyətliliyə malik olması ilə seçilir. Qeyd olunmalıdır ki, bütün bu hüquqi tənzimləmələr bir tərəfdən geridə qalan illərin güclü soaial-iqtisadi bazasını təşkil edirdisə, digər tərəfdən də qarşıdakı dövrlər üzrə davamlı perspektivlər vəd etməkdədir. Burada 29 mart 2019-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq olunmasını da qeyd edə bilərik. Təsdiq olunan Dövlət proqramlarında müəyyən olunmuş dövrlər də həyata keçirilmiş tədbirlər aşağıdakı cədvəlin məlumatlarında təqdim olunur.

**Makroiqtisadi inkişafın əsas istiqamətləri və iqtisadi artım**

Təbii ki, muxtar respublikada təşəkkül tapan mövcud potensial təbii və iqtisadi resurslardan düzgün istifadənin ifadəsi olmaqla, iqtisadi artımın təmin olunmasındakı rolu ilə seçilir. İqtisadi artım əhalinin təlabatını ödəmək üçün məhsul və xidmətlərin əvvəlki dövrə nisbətən çox və keyfiyyətli istehsal olunmasını nəzərdə tutmaqdadır (7, s.9). Təbii ki, artıq muxtar respublikada ardıcıl və əlaqəli şəkildə olmaqla, təsdiq və icra olunan bir çox hüquqi mexanizmləri iqtisadi artımın təmin olunması fonunda öz ifadəsini həm iqtisadi, həm də sosial sahələrin inkişafında tapmaqdadır. Həyata keçirilən tədbirlər iqtisadiyyatın aparıcı sahələrinin, xüsusilə də, sənaye və kənd təsərrüfatının mövcud perspektivlərini daha da artırmış və bunlar, digər sahələrlə birlikdə əsas makroiqtisadi göstərici olan Ümum Daxili Məhsulun (ÜDM) müqavimətli strukturunu formalaşdırmışdır. Bunu 2010-2020-ci illərin sosial-iqtisadi inkişafından ibarət son 10 ilin keyfiyyət göstəriciləri də sübut edir.



**Şəkil 1.**

**Naxçıvan Muxtar Respublikasında ÜDM-nin həcmi (min manat)**




Şəkil DSK-nin statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Göründüyü kimi, 2010-2020-ci illərdə muxtar respublikada ÜDM-nin həcmi 2,5 dəfə artmışdır. Bununla yanaşı, qeyd edə bilərik ki, məhz 2010-cu ildə muxtar respublikada ÜDM-nin həcmi 1 milyard manatı, 2012-ci ildə isə 2 milyard manatı ötüb keçmişdir (8). Təbii ki, mövcud potensial muxtar respublikada müdrik ideyalar əsasında davam etdirilən iqtisadi islahatların səmərəliliyini, həmçinin, bu sahədəki proseslərin düzgün təşkili və idarəolunmasını göstərməkdədir. Bu dinamika eyni zamanda, iqtisadiyyatın qlobal böhran və pandemiyanın təsirləri qarşısında müqavimətliliyini və sosial dayanıqlılığını daha da

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

artırmaqla, yaxın gələcəkdə ÜDM-nin həcminin 3 milyard manatı ötəcəyini deməyə əsas verir.

**İqtisadiyyatın sosialyönümlülüyünün artırılması və dinamik inkişaf**

İqtisadiyyat inkişaf etdikcə, onun sosialyönümlülük çəkisi də artır. Təbii ki, bunlar isə, cəmiyyətin artmaqda olan təlabatının ifadə oluna bildiyi, insanların təhsilinin, sağlamlığının, dünyagörüşünün, mədəni ketfiyyətlərinin təmin olunduğu, ölkənin elmi-texniki inkişafı ilə müşayiət olunan iqtisadiyyatın səmərəlilik göstəricisindən ibarət potensialla sosiallaşan iqtisadiyyat kimi ifadə olunur (5, s. 33). Təbii ki, qeyd olunan amillər eyni zamanda, əhalinin həyat səviyyəsinin, rifah göstəricilərinin səmərəli təşkilinə istiqamətlənmişdir. Araşdırmalardan məlum olduğu kimi, qlobal miqyasda həyat səviyyəsini xarakterizə etmək üçün 1990-cı ildən başlayaraq BMT-nin təşəbbüsü ilə yeni göstərici – "insanın inkişafı indeksi" tətbiq olunmağa başlandı. Onun hesablanması zamanı isə üç mühüm göstəricidən istifadə olunurdu ki, bunlardan birini də ÜDM təşkil edirdi (2, s. 250). Həmin amillər əhalinin alıcılıq qabiliyyətinin artırılması müstəvisində daha mühüm amil olaraq qərarlaşmış və xüsusilə də, 2010-2020-ci illər üzrə öz davamlılığını hər bir nəfərə düşən ÜDM-nin həcmində də göstərmişdir.

**Şəkil 2.**

**Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ÜDM-nin həcmi (manat)**




Şəkil DSK-nin statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.



Şəklin məlumatları əsasında aparılan hesablamalardan aydın olur ki, ÜDM-nin hər bir nəfərə düşən həcmi üzrə 2010-2020-ci illərdə 2,2 dəfəlik artım təşəkkül tapmışdır. Təhlillər göstərir ki, müvafiq göstərici 2011-ci ildə 4000, 2013-cü ildə 5000, 2018-ci ildə isə 6000 manatı keçmişdir (8).

**Naxçıvan Muxtar Respublikasında makroiqtsadi inkişafı hədəfləyən sənayeləşmə siyasətinin perspektivləri və iqtisadi şaxələndirmə**

Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafı ilə ölkənin milli iqtisadi perspektivləri üçün zəruri olan proseslərin məqsədyönülülüyünü təmin etməkdədir. Təbii ki, burada iqtisadiyyatın aparıcı sahələri olaraq sənayenin və kənd təsərrüratının mezoiqtisadi əhəmiyyətlilik zəminində inkişafı da diqqəti çəkməkdədir. Hazırda ölkənin qeyri-neft sektorunun inkişafından ibarət hədəflərinin əlçatan olması hər iki sahənin davam edən islahatlar fonunda inkişafından çox asılıdır. Ölkəmizdə və onun regionlarında sənayeləşmə siyasətinin davamlı xarakterə malik olması Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə Sənaye Parkları (6), Nazirlər Kabinetinin 13 may 2015-ci il tarixli 186 nömrəli Qərarı ilə isə Sənaye Məhəllələri haqqında Nümunəvi Əsasnamə təsdiq olundu. Nümunəvi Əsasnamələrin təsdiq olunması ilə yeni keyfiyyət mərhələsinə keçdi. Hər bir tənzimlənmə vasitələrində olduğu kimi Sənaye parkları və məhəllələrinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yaradılması və fəaliyyətinin tənzimlənməsində də Naxçıvan Muxtar Respublikasında məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məcisinin Sədri tərəfindən 6 iyun 2013-cü il tarixdə imzalanan Fərmanla təsdiq olunmuş "Sənaye Parkları haqqında Əsasnamə"nin sosial-iqtisadi əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bu tənzimlənməyə uyğun olaraq, muxtar respublikada səmərəli sənayeləşmə mühitinin əsasları yaradılmışdır. 16 bənddən ibarət olan həmin əsasnamə muxtar respublika iqtisadiyyatının ardıcıl inkişafında, onun milli iqtisadi inkişafda təkanverici təsirinə bir daha əhəmiyyətlilik gətirməkdədir. Bununla da, muxtar respublikada yeni təsərrüfatçılıq, yeni məhsuldarlıq və yeni istehsal mühitinin əsasları yaradılmış oldu. Ölkə başçısının 13 sentyabr 2019-cu il tarixli Fərmanla isə Naxçıvan Muxtar Respublikasında Şərur Sənaye Məhəlləsinin yaradılması təmin olundu (9). Fərman eyni zamanda muxtar respublikada səmərəli Sənaye Parkları və məhəllələri üçün etibarlı zəminin yaradılmasını təmin edəcək. Digər tərəfdən, Fərmannın 7.1, 7.2 və 7.3-cü bəndlərində də müəyyən olunan "Naxçıvan Muxtar Respublikasında yaradılan Sənaye Məhəllələri" ifadəsindən də aydın olur ki, muxtar respublikada Şərur Sənaye Məhəlləsindən sonra yeni Sənaye Məhəllələri və ya Parklarının yaradılması da nəzərə alınmışdır. Muxtar respublikada Sənaye Məhəlləsinin yaradılması prosesləri göstərir ki: özəl sektorun gücünün və imkanlarının artırılması hədəflənir; sahibkarlıq fəaliyyətinin aparıcı qüvvə olaraq inkişafı diqqət mərkəzindədir; istehsal münasibətlərinin muxtar respublikanın bütün ərazilərində özünə kök salması təmin olunur; məşğulluq səviyyəsinin yüksəldilməsi və bu sahədəki göstəricilərin artım dinamikası dövlətin iqtisadi siyasətində prioritetdir; ümumilikdə, ölkəmiz miqyasında qeyri-neft sektorunun davamlı inkişafı məqsədilə islahatlar perspektivliyə malik olmaqla, davam etdirilir.

Nəzərə alsaq ki, ölkə regionlarında yaradılan Sənaye Parkları və Məhəllələrinin yaradılması prosesləri makroiqtisadi zəmində sənayeləşmə ilə yanaşı, eyni zamanda sosiallaşma, xüsusilə də, məşğulluq perspektivlərini artırmaqdadır, onda makroiqtisadi inkişafın güclü dayaqlarının yarandığını qeyd etmək olar. Makroiqtisadi inkişafın və onun dayanıqlılığının ifadəsi olaraq, ilk olaraq Şərur sənaye məhəlləsində bitki yağları istehsalı üzrə ixtisaslaşan müəssisənin qurulması muxtar respublikada bu sahə üzrə idxala yüz faiz həcmində son qoyacaq. Digər tərəfdən, burada xalça fabrikinin və yun tədarükü sexinin qurulması bu sahədə strateji mərhələni təşkil edəcəkdir. Təbii ki, təşəkkül tapan potensial muxtar respublikanın yaxın və uzaq gələcək üzrə sosial-iqtisadi perspektivlərini daha da artıracaq. Qeyd olunan tənzimləmələrlə sənaye ilə yanaşı, kənd təsərrüfatının istehsal perspektivlərinin də geniş əhatədə təşəkkülünə zəmin yarandı. Nəticədə, istər xammal mənbələrindən səmərəli istifadə olunması, istər emal proseslərinin etibarlılığı, istərsə də istehsalın fasiləsizliyinin təmin olunması müasir milli iqtisadi inkişafın mühüm göstəriciləri olaraq aktuallığını artırmış oldu. Məhz 2010-2020-ci illərdə muxtar respublikada sənaye və kənd təsərrüfatının artım dinamikası da bunu göstərir.

**Şəkil 3.**

**Naxçıvan Muxtar Respublikasında sənaye və kənd təsərrüfatının inkişafı haqqında məlumat (min manat)**




Şəkil DSK-nin statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

2010-2020-ci illərdə muxtar respublikada sənaye məhsulunun həcmi 3,3 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi isə 2,2 dəfə artmışdır. Statistik göstəricilərin təhlilindən də aydın olur ki, hər iki sahə muxtar respublika iqtisadiyyatının inkişafı sahəsində zəruri əhəmiyyətliliyini qoruyub saxlamış və iqtisadi artımın güclü dayaqlarını yarada bilmişdir. İnkişafın son on ilində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında bütün sahələrin keyfiyyətcə yeni mərhələdə təşəkkülünü qeyd etmək olar. Bu, həm də iqtisadi şaxələndirmənin, diversifikasiyanın effektiv təminatının çox mühüm ifadəsi olaraq da əhəmiyyətlidir. Xüsusilə, dəyişiklik, müxtəliflik mənasında, iqtisadi anlamında kapitalın təmərküzləşməsi, formalarından biri kimi məhsulun nomenklaturasının genişləndirilməsi, istehsalın bir-birilə əlaqəsi olmayan növlərinin eyni zamanda, inkişafını səciyyələndirən diversifikasiya (2, s.115) muxtar respublika iqtisadiyyatında da aktuallığını qorumaqdadır.

**Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı: regional və milli iqtisadi müqavimətlilik**

Təbii ki, bütün qeyd olunanlar əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda özünü ifadə edə bilmişdir. Güclü infrastrukturun və etibarlı təminatın vacib elementləri kimi yüksək mahiyyətə malik olan bu göstəricilər həm də ölkə iqtisadiyyatının diversifikasiya olunmasında zəruri amil olmuşdur. Latın sözü olmaqla, “diversus” və “facere” sözlərindən əmələ gəlmiş diversifikasiya “müxtəlif etmək” mənasını daşıyır. Eyni zamanda, iqtisadi şaxələndirmənin və istehsalın bir-birilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafını ifadə etməkdədir. Məhz muxtar respublikanın bütün kənd, qəsəbə, rayon və şəhərlərinin müasir və modern səviyyədə inkişafının ən gerçək ifadəsi olaraq aktualdır.

**Şəkil 4.**

**Naxçıvan Muxtar Respublikasında ÜDM-nin strukturu üzrə inkişafı (dəfə)**




Şəkil DSK-nin statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Naxçıvan Muxtar Respublikası həm də ölkəmizin etibarlı dostluq münasibətlərinin və səmərəli xarici ticarət əlaqələrinin inkişafında da mühüm rola malikdir. İstinad olunan illər üzrə bu sahədə əldə olunan uğurlar 2019-cu ilin “Ailə təsərrüfatları ili”, 2020-ci ilin isə “İxrac İli” elan olunmasına əlverişli zəmin yaratdı. Biri-birinin əlaqəliliyi və tamamlaması baxımından yerli istehsalın inkişafından, daxili bazarın qorunmasından, tələbatların bu amil üzrə qarşılanmasından, nəticə etibarı ilə isə rəqabət qabiliyyətli və ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasından və idxalın məhdudlaşdırılmasından ibarət uğurlar muxtar respublikanın etibarlı xarici ticarət dövriyyəsinin perspektivlərini də artırmışdır. Bütün bunlarla eyni zamanda, xarici ticarət mal gətirilməsi (idxalat) və göndərilməsi (ixracat) ilə səciyyələnən ölkələrarası ticarəti ifadə etməkdədir (4, s.343). Bütün bunlar özünü 2010-2020-ci illərdə muxtar respublikada Xarici Ticarət Dövriyyəsinin strukturunda ifadə etmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 5.**
**Naxçıvan Muxtar Respublikasında Xarici Ticarət Dövriyyəsinin strukturu haqqında məlumat (min ABŞ dolları)**




Şəkil DSK-nin statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

2010-2020-ci illərdə muxtar respublikada Xarici Ticarət Dövriyyəsinin həcmi 2 dəfə artmışdır. 2009-cu ildən xarici ticarət əməliyyatlarında yaranan müsbət saldo son on ildə qorunmuş və 2020-ci ildə də təmin olunmuşdur. Təhlillər göstərir ki, əgər 2010-cu ildə ixrac əməliyyatları ümumi ticarət əməliyyatlarının 82,1 faizini təşkil edirdisə, 2020-ci ildə bu göstərici 84 faizə qədər artmışdır. Bunlarla yanaşı, 2010-cu ildə müsbət saldo ixracın həcmindən 78,1 faizini təşkil etmişdirsə, 2020-ci ildə bu, 81 faizinə bərabər olmuşdur. 2010-cu ildə idxalın həcmi ixracın həcminin 21,8 fazinə bərabər olmuşdursa, 2020-ci ildə həmin göstərici 19,1 faizə enmişdir. Həmçinin, 2010-cu ildə ixracın həcmi idxalın həcmindən 4,6 dəfə çox olmuşdursa, 2020-ci ildə bu nisbət 5,2 dəfə təşkil etmişdir. Digər tərəfdən, 2010-cu ildə müsbət saldonun həcmi idxalın həcmindən 3,6 dəfə çox olmuşdursa, 2020-ci ildə bu artım 4,2 dəfədən çox olmuşdur. Təhlillər 2010-2020-ci illəri əhatə etməklə, 10 illik davamlı və dayanıqlı iqtisadi inkişafın etibarlı əsaslarını təşkil etməkdədir. 2021-ci ilin yanvar-may aylarında isə muxtar respublikanın makroiqtisadi göstricilәri artan dinamikada təşəkkül tapmışdır. Məlumdur ki, 2020-ci ilin əvvəllərindən hətta qlobal iqtisadiyyatda COVİD-19 Pandemiyanın təsirləri ölkələrin milli iqtisadiyyatlarını da əhatə etmişdir. Bu mənada, düşünürük ki, milli iqtisadiyyatları: pandemiyadan əvvəlki dövrün; pandemiya dövrünün; postpandemiya dövrünün iqtisadiyyatı olaraq üç istiqamətdə qruplaşdırmaq məqsədəuyğun olar. Məhz təhlillərimiz də göstərir ki, muxtar respublika iqtisadiyyatı Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmaq etibarı ilə məqsədyönlü və uzunmüddətli tənzimlənmə mexanizmlərinə uyğun olaraq pandemiyadan əvvəlki dövrdə etibarlı baza formalaşdırmışdır. Bu əsasla Naxçıvan Muxtar Respublikası Pandemiya dövrünün təhdidlərinə qarşı müqavimətlilik əldə etmiş və iqtisadiyyatını postpandemiya dövrü üçün dayanıqlı vəziyyətdə saxlaya bilmişdir.

**Nəticə**

Naxçıvan Muxtar Respublikası davamlı iqtisadi islahatlara əsaslanan sosial-iqtisadi inkişafa dayanan potensial əsasında müasir müstəqillik illərinin daha dinamik, daha etibarlı sosial-iqtisadi potensialını yaratmışdır. Güclü baza əsasında 2010-2020-ci illərdə milli iqtisadiyyat üzrə perspektivlərin müəyyən olunmasında və regional iqtisadi siyasətin vacib təsisatlarının yaradılmasında bu potensialın xüsusi önəmi vardır. Təbii ki, əldə olunan nəticələr qarşıdakı dövrlər üzrə daha böyük uğurlara yol açacaqdır. Beləliklə, təhlil nəticələri aşağıdakı qənaətə gəlməyə əsas verir ki, muxtar respublikada: iqtisadi inkişaın son on ilində



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təşəkkül tapan potensial bütün təsərrüfat kateqoriyalarının fəaliyyətinin səmərəyə söykənən nəticəsini ifadə etməkdədir; sosiallaşma və sənayeləşmə siyasətinin etibarlılığı qorunmaqdadır; iqtisadiyyatın sahə strukturunun düzgün əlaqələndirilməsi proseslərində keyfiyyət göstəriciləri mövcuddur; yerli məhsulların ərazi ixtisaslaşması müəyyən olunan hədəflərin əlçatanlığını təmin etməkdədir; idxalın məhdudlaşdırılması və ixracyönümlü məhsul istehsalı sahəsində tədbirlər reallaşmaqdadır.

**Ədəbiyyat**

1. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005.
2. İbadov S. A. İqtisadi nəzəriyyə. Bakı: Şərq-Qərb, 2009, 414 s.
3. İsmayılov B.V. Strateji menecment. Bakı: Təhsil, 2018, 296 s.
4. Libman Q.İ., Filatov O.K. Bakı: ASE, 1989, 359 s.
5.Qasımov C.Y. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı regional Dövlət proqramlarının icrası müstəvisində (2004-2018-ci illər). Naxçıvan: Əcəmi, 2020, 320 s.
6. Sənaye parkları haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
7. Şirəliyev A.İ., Mahmudov C.İ. İqtisadi artım və sosial tərəqqi. Naxçıvan: İdeya, 2012, 146 s
8. http://www.statistika.nmr.az/
9. http://www.e-qanun.az



***Джавадхан Юсиф оглы Гасымов***

***Макроэкономическое развитие и устойчивость в Нахчыванской Автономной Республике***

***Резюме***

*В статье рассматривается десятилетний период устойчивого социально-экономического развития Нахчыванской Автономной Республики в 2010-2020 годах. В статье проводится анализосновного макроэкономического показателяэтого периода–производственного объема ВВП, как показателя социальной направленности экономики ианализ его объёма на душу населения. Приведена динамика развития промышленности и сельского хозяйства, которые являются ведущими отраслями, а также динамика роста, наблюдаемого в структуре ВВП. При этом, результаты последних десяти лет в области внешнеторгового оборота, роста экспортных операций и ограничения импорта и, как следствие, формирования положительного сальдо представлены в виде диаграмм.Формирование ключевых макроэкономических показателей в растущей динамике послужило локомотивом диверсификации экономики, заложившей основу для создания новых производств. Это, конечно, привело к ускорению социализации и увеличению занятости. При этом было отмечено, что последствия пандемии COVID-19, ставшей угрозой для национальных экономик мира с начала 2020 года, сохраняются. В связи с этим развитие национальных экономик решается по трем направлениям. Их можно сгруппировать в основном по странам с экономикой до пандемии, период пандемии и после нее. Показано, что до пандемии экономическое развитие было обеспечено. Это стало надежной базой на период пандемии. Это также принесло сопротивление постпандемическому периоду.*

***Ключевые слова:*** *динамика развития, валовой внутренний продукт, внешнеторговые операции, диверсификация экономики, устойчивость и др.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Javadkhan Yusif Gasimov***

***Macroeconomic development and sustainability in the Nakhchivan Autonomous Republic***

***Summary***

*The article focuses on the ten-year period of sustainable socio-economic development of the Nakhchivan Autonomous Republic for 2010-2020. During this period, the main macroeconomic indicator, the volume of GDP, as an indicator of social orientation of the economy, its analysis per capita was analyzed. The dynamics of development of industry and agriculture, which are the leading sectors, and the dynamics of growth observed in the structure of GDP are presented. At the same time, the results of the last ten years in the field of foreign trade turnover, growth in export operations, and the restriction of imports and, consequently, the formation of a positive balance are given by diagrams. The formation of key macroeconomic indicators in the growing dynamics has had a driving force in the diversification of the economy, which has laid the foundation for the creation of new industries. This, of course, has led to an acceleration of socialization and an increase in employment. At the same time, it was noted that the effects of the COVID-19 pandemic, which has become a threat to the national economies of the world since early 2020, remain. In this regard, the development of national economies is decided in three directions. They can mainly be grouped into pre-pandemic, pandemic and post-pandemic economies. It is shown that economic development was ensured before the pandemic. This has become a reliable basis for the pandemic period. The post-pandemic period has also gained resistance.*

***Keywords:*** *development dynamics, gross domestic product, foreign trade operations, economic diversification, sustainability, etc.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 11.06.2021.***
***Çapa qəbul olunub: 17.06.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*